

AZƏRBAYCAN RESPUBLİKASI İQTİSADİ İSLAHATLARIN
TƏHLİLİ VƏ KOMMUNİKASİYA MƏRKƏZİ

# İXRAC İCMALI

Fevral 2019

iqtisadiislahat.org
info@ereforms.org

AZEXPORT.AZ
Made in Azerbaijan

# “2018-Cİ İL DƏRİN İQTİSADİ İSLAHATLAR İLİ OLMUŞDUR”

**“2019-cu ilin sonrakı aylarında da çox ciddi islahatlar aparılacaq və dərinləşdiriləcək ki, ölkəmizin hər bir sahəsində inkişaf, tərəqqi olsun, vətəndaşlar daha da yaxşı yaşasınlar"**

Azərbaycan Respublikasının Prezidenti
cənab İLHAM ƏLİYEVİN
2019-cu il 25 fevral tarixində iqtisadi və
sosial məsələlərlə bağlı keçirilən
müşavirədəki nitqindən



“2018-ci il dərin iqtisadi islahatlar ili olmuşdur, xüsusilə prezident seçkilərindən sonra islahatların yeni mərhələsinə təkan verilmişdir. 2017-ci il isə iqtisadi sabitləşmə ili idi. Biz 2017-ci ildə iqtisadi sabitliklə bağlı çox önəmli addımlar atmışıq. Bu, bizə imkan verdi ki, 2018-ci ildə çox ciddi islahatlara başlayaq və islahatlar özünü göstərir. Əgər bu ilin yanvar ayının yekunlarına nəzər salsaq görərik ki, iqtisadi artım, yəni, ümumi daxili məhsulun artımı təxminən 3 faiz təşkil edir. Son 2-3 il ərzində bu, ən yüksək göstəricidir və onu göstərir ki, 2019-cu ildə Azərbaycanda iqtisadi artım yüksək templərlə təmin ediləcək və davam etdiriləcək.

Eyni zamanda, son illər ərzində apardığımız uğurlu sənayeləşmə siyasəti öz nəticələrini göstərir. Bu ilin birinci ayında qeyri-neft sektorunda sənaye istehsalı təxminən 14 faiz artmışdır. Hesab edirəm ki, bu, dünya miqyasında ən yüksək göstəricilərdən biridir, bəlkə də birincisidir və onu göstərir ki, sənaye istehsalı sahəsində aparılan işlər, qəbul edilmiş qərarlar bu gün real nəticələrə gətirib çıxarır.

İqtisadi, makroiqtisadi vəziyyət sabitdir, manatın məzənnəsi bir ildən çoxdur ki, sabit olaraq qalır, inflyasiya ən aşağı səviyyədədir. Yəni, bütün bunlar görülmüş işlər nəticəsində mümkün olub və bir daha onu göstərir ki, sosial və iqtisadi islahatlara alternativ yoxdur. 2019-cu ilin sonrakı aylarında da çox ciddi islahatlar aparılacaq və dərinləşdiriləcək ki, ölkəmizin hər bir sahəsində inkişaf, tərəqqi olsun, vətəndaşlar daha da yaxşı yaşasınlar”.

# MÜNDƏRİCAT

Qeyri-neft sektoru üzrə ixraca dair məlumat — səh. 3

Qeyri-neft sektoru üzrə əsas ixracatçı subyektlərin reytinqi — səh. 9

Azexport.az portalına 2019-cu ilin yanvar ayında 91,7 milyon ABŞ dolları məbləğində ixrac sifarişi daxil olmuşdur — səh. 15

“Elektron Ticarət” və “İxrac prosedurları” mövzusunda təlim keçirilmişdir — səh. 19

“Bir Pəncərə” İxraca Dəstək Mərkəzindən 5,6 milyon ABŞ dolları dəyərində ixrac həyata keçirilmişdir — səh. 21

Azərbaycan məhsulları “Prodexpo 2019”-da medala layiq görülmüşdür — səh. 23

Azərbaycan şirkətləri “Gulfood 2019” beynəlxalq qida sərgisində iştirak etmişdirlər — səh. 24

1

# QEYRİ-NEFT SEKTORU ÜZRƏ İXRACA DAİR MƏLUMAT

2019-cu ilin **YANVAR-AYINDA** qeyri-neft sektoru üzrə **138** milyon ABŞ dolları dəyərində mal **İXRAC OLUNMUŞDUR**

**ÖTƏN İLİN** müvafiq dövrü ilə müqayisədə qeyri-neft sektoru üzrə ixrac **15** milyon ABŞ dolları və ya **12%** **ARTMIŞDIR**

Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinin məlumatına əsasən, 2019-cu ilin yanvar ayı ərzində Azərbaycan Respublikasının ixracı 1,3 milyard ABŞ dolları təşkil etmişdir. Bu müddətdə qeyri-neft sektoru üzrə ixrac isə **138 milyon** ABŞ dolları olmuşdur. 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə 2019-cu ilin yanvar ayı ərzində qeyri-neft sektoru üzrə ixrac **15 milyon** ABŞ dolları və ya **12 faiz** artmışdır. Cari ilin yanvar ayı ərzində Rusiyaya **46,3 milyon**, Türkiyəyə **25,2 milyon**, Gürcüstana **13,6 milyon**, İsveçrəyə **9,8 milyon** və İrana **6,9 milyon** ABŞ dolları dəyərində qeyri-neft sektoruna aid mal ixrac olunmuşdur.

2018-ci ilin müvafiq dövrü ilə müqayisədə 2019-cu ilin yanvar ayı ərzində Rusiyaya qeyri-neft ixracı **26 faiz**, Türkiyəyə **9 faiz**, Gürcüstana **20 faiz**, İrana **4,1 dəfə** artmışdır. İsveçrəyə isə ixrac azalmışdır.

2019-cu ilin yanvar ayı ərzində ixrac edilən qeyri-neft sektoruna aid malların siyahısında xurma (12,6 milyon ABŞ dolları) birinci, qabığı təmizlənmiş meşə fındığı (12 milyon ABŞ dolları) ikinci olmuşdur. Mahlıc isə (11,9 milyon ABŞ dolları) bu siyahıda üçüncü yerdə qərarlaşmışdır.

Cari ilin yanvar ayında elektrik enerjisi, tomat, qızıl (sikkə kəsilməsində istifadə olunmayan, digər emal olunmamış formalarda), xüsusi kütləsi 0,94-dən az olan ilkin formalı polietilen, metanol (metil spirti) və alma qeyri-neft ixracında mühüm paya sahib olmuşlar.

Ümumiyyətlə, 2019-cu ilin yanvar ayı ərzində meyvə-tərəvəz ixracı **43, 4 milyon**, pambıq lifi ixracı **11,9 milyon**, plastmassa və onlardan hazırlanan məmulatların ixracı **11,7 milyon**, elektrik enerjisinin ixracı **11,1 milyon**, alüminium və ondan hazırlanan məmulatların ixracı **6,9 milyon**, qara metallar və onlardan hazırlanan məmulatların ixracı **3,2 milyon**, kimya sənayesi məhsullarının ixracı **6,7 milyon**, alkoqollu və alkoqolsuz içkilərin ixracı **2,7 milyon**, pambıq ipliyi ixracı **859 min** ABŞ dolları təşkil etmişdir.

2018-ci ilin müvafiq dövrü ilə müqayisədə cari ilin yanvar ayında alkoqollu və alkoqolsuz içkilərin ixracı **4,5 dəfə**, elektrik enerjisinin ixracı **4,3 dəfə**, kimya sənayesi məhsullarının ixracı **86 faiz**, pambıq lifinin ixracı **80 faiz**, meyvə-tərəvəzin ixracı **24 faiz**, plastmassa və onlardan hazırlanan məmulatların ixracı **14 faiz** artmışdır.

Onu da qeyd edək ki, 2019-cu ilin yanvar ayından etibarən qeyri-neft ixracımızda ilkin formalı polipropilen də önə çıxmağa başlamışdır. Bu isə ondan xəbər verir ki, "SOCAR Polymer" layihəsi ixracda öz sözünü deməyə başlayır. Cari ilin yanvar ayında ölkəmizdən 4,3 milyon ABŞ dolları dəyərində ilkin formalı polipropilen ixrac edilmişdir. Hesablamalara görə, "SOCAR Polymer" zavodlarının fəaliyyəti nəticəsində ildə 10 çeşiddə 184 min ton polipropilen və 4 çeşiddə 120 min ton yüksəksıxlıqlı polietilen istehsal edəcəkdir.

Bu sənaye kompleksi daxili bazarın tələbatını tam ödəyəcək və məhsulun izafi qalan 75 faizini Türkiyə və Avropa bazarlarına ixrac edəcəkdir. Nəticədə "SOCAR Polymer" layihəsi Azərbaycanın qeyri-neft sektorunun ixrac gəlirlərini 15 faiz artıracaqdır. Eyni zamanda qarşıdakı aylarda "SOCAR karbamid" zavodunun istehsala başlaması ilə ölkəmizdə 650-660 min ton karbamid məhsulu istehsal ediləcəkdir. Bu zavodun da istehsal həcminin 70 faizi ixrac üçün nəzərdə tutulmuşdur.

2019-cu ilin yanvar ayı ərzində ixrac olunan əsas malların siyahısı və əsas ixrac ölkələri barədə daha ətraflı məlumat təqdim olunan infoqrafikalarda verilmişdir.

MADE IN AZERBAIJAN

# 2019-CU İLİN **YANVAR AYINDA** QEYRİ-NEFT SEKTORU ÜZRƏ **5 ƏSAS İXRAC ÖLKƏSİ**
**(2018-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)**

2019 İXRAC İCMALI FEVRAL



## 2019-CU İLİN **YANVAR AYINDA** 2018-Cİ İLİN MÜVAFİQ DÖVRÜNƏ NİSBƏTƏN QEYRİ-NEFT SEKTORUNA AİD BƏZİ MALLARIN **İXRACININ ARTIMI**

**(Dəyəri milyon ABŞ dolları ilə)**



# 2019-CU İLİN **YANVAR AYINDA** İXRAC OLUNAN ƏSAS QEYRİ-NEFT MALLARININ SİYAHISI
## (Ötən ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

2019 İXRAC İCMALI FEVRAL

| | 2019 | 2018 |
|---|---|---|
| Xurma | 12,6 | 13,4 |
| Fındıq ləpəsi | 12 | 9 |
| Mahlıc | 11,9 | 6,5 |
| Elektrik enerjisi | 11,1 | 2,6 |
| Tomat | 10,5 | 7,9 |
| Qızıl | 9,7 | 17,2 |
| İlkin formalı polietilen | 6,5 | 9,7 |
| Metanol (metil spirti) | 5,4 | 0 |
| Alma | 5,2 | 3,2 |
| Digər | 52,7 | 52,8 |

## 2018-Cİ İLİN VƏ 2019-CU İLİN **YANVAR** AYINDA ƏN ÇOX İXRAC EDİLƏN QEYRİ-NEFT SEKTORUNA AİD MALLAR **(milyon ABŞ dolları ilə)**

**2018**
**YANVAR**



Qızıl - **17,2**

**2019**
**YANVAR**



Xurma - **12,6**

# 2

# QEYRİ-NEFT SEKTORU ÜZRƏ ƏSAS İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ

## 2019-cu ilin **YANVAR AYINDA** qeyri-neft sektoru üzrə **ƏSAS İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ**

"İxrac İcmalı" tərəfindən qeyri-neft sektoru üzrə 2019-cu ilin yanvar ayında həyata keçirilən ixracla bağlı həm qeyri-dövlət, həm də dövlətə məxsus ixracatçı subyektlərin reytinqi tərtib edilmişdir.

Cari ilin yanvar ayı üzrə hazırlanan qeyri-dövlət ixracatçı subyektlərin reytinqində ilk onluqda aşağıdakı subyektlər təmsil olunurlar: "MKT İstehsalat Kommersiya" MMC, "TST Export" MMC, "Azərbaycan İnterneyşnl Mayninq Kompani Limited Şirkəti"nin Azərbaycan Respublikasındakı nümayəndəliyi, "Socar Polymer" MMC, "Garden Store" MMC, "Vorld Trade" MMC, "Baku Steel Company" MMC, "Ram Beynəlxalq Nəqliyyat və Ticarət LTD" MMC, "Azhazelnut" MMC, "Sun Food" MMC.

2018-ci üzrə tərtib edilən reytinqlə müqayisədə aydın olur ki, 2019-cu ilin ilk ayında "TST Export" MMC, "Socar Polymer" MMC, "Garden Store" MMC, "Vorld Trade" MMC kimi şirkətlər qeyri-dövlət ixracatçı subyektlərin reytinqində ilk onluqda təmsil olunmaq şansı qazanmışlardır. Onu da qeyd edək ki, "Socar Polymer" MMC dövlət-özəl sektor tərəfdaşlığı nəticəsində yaranan müəssisə olduğu üçün qeyri-dövlət ixracatçı subyektlərin siyahısında təmsil olunmuşdur.

Qeyri-neft sektoru üzrə ixrac əməliyyatlarında iştirak edən və 50 min ABŞ dollarından çox ixrac həyata keçirən dövlətə məxsus şirkətlərin siyahısına isə ARDNŞ-nin "Marketinq və İqtisadi Əməliyyatlar İdarəsi" başçılıq edir. Daha sonra bu siyahıda aşağıdakı şirkətlər təmsil olunurlar: "Azərenerji" ATSC, "Azəralüminium" MMC, "Azergold" QSC, "Azərbaycan Hava Yolları" QSC, "CTS-Agro" MMC, "Azəripək" MMC, "Suraxanı Maşınqayırma Zavodu Törəmə" ASC.

Bu ixracatçıların reytinqi ilə bağlı məlumatla təqdim olunan infoqrafikalardan tanış ola bilərsiniz.



# 2019-CU İLİN YANVAR AYINDA QEYRİ-NEFT SEKTORU ÜZRƏ QEYRİ-DÖVLƏT İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ (2018-ci ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)

| | yanvar 2019 | yanvar 2018 |
|---|---|---|
| "MKT İSTEHSALAT KOMMERSİYA" MMC | 10,1 milyon | 4,5 milyon |
| "TST EXPORT" MMC | 4,5 milyon | 0 |
| "AZƏRBAYCAN İNTERNEYŞNL MAYNİNQ KOMPANİ LİMİTED ŞİRKƏTİ"NİN AZƏRBAYCAN RESPUBLİKASINDAKI NÜMAYƏNDƏLİYİ | 4,3 milyon | 11 milyon |
| * "SOCAR POLYMER" MMC | 4,2 milyon | 0 |
| "GARDEN STORE" MMC | 2,9 milyon | 0 |
| "VORLD TRADE" MMC | 2,5 milyon | 0 |
| "BAKU STEEL COMPANY" MMC | 2,1 milyon | 2,4 milyon |
| "RAM BEYNƏLXALQ NƏQLİYYAT Və TİCARƏT LTD" MMC | 2.1 milyon | 2 milyon |
| "AZHAZELNUT" MMC | 2 milyon | 1, 4 milyon |
| "SUN FOOD" MMC | 1,8 milyon | 1,3 milyon |

* "Socar Polymer" MMC dövlət-özəl sektor tərəfdaşlığı nəticəsində yaranan müəssisə olduğu üçün qeyri-dövlət ixracatçı subyektlərin siyahısında təmsil olunmuşdur.

## 2019-CU İLİN **YANVAR AYINDA** QEYRİ-NEFT SEKTORU ÜZRƏ **DÖVLƏTƏ MƏXSUS İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ (Ötən ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)**

2019
İXRAC İCMALI
FEVRAL






# 2019-CU İLİN YANVAR AYINDA "AZƏRKOSMOS" ASC 1,1 MİLYON ABŞ DOLLARI DƏYƏRİNDƏ XİDMƏT İXRAC ETMİŞDİR





2019-cu ilin yanvar ayında "Azərkosmos" ASC tərəfindən dünyanın **15 ölkəsinə** xidmət (peyk telekommunikasiya xidmətləri və optik peyk xidmətləri) ixrac edilmişdir.

"Azərkosmos" ASC-nin xidmət ixracından əldə etdiyi gəlir onun ümumi gəlirlərinin **76,7 faizini** təşkil etmişdir.




2019-cu ilin yanvar ayında "Azərkosmos" ASC-nin xidmət ixrac etdiyi **5 əsas ölkə** (ABŞ dolları ilə)

| Ölkə | Məbləğ |
|---|---|
| Fransa | 638 min |
| BƏƏ | 112 min |
| Nigeriya | 106 min |
| Almaniya | 84 min |
| Gürcüstan | 60 min |



2019-cu ilin **YANVAR AYINDA**
Azərbaycana gələn xarici vətəndaşlar
**BANK KARTLARI VASİTƏSİ İLƏ**
**88,3** milyon manatlıq əməliyyat aparmışlar

**ÖTƏN İLİN** müvafiq dövrü ilə müqayisədə
**AZƏRBAYCANA GƏLƏN** əcnəbi və vətəndaşlığı
olmayan şəxslərin sayı **2,9% ARTMIŞDIR**

2019-cu ilin yanvar ayında Azərbaycana dünyanın 143 ölkəsindən 191,6 min və ya 2018-ci ilin yanvar ayı ilə müqayisədə 2,9 faiz çox əcnəbi və vətəndaşlığı olmayan şəxs gəlmişdir. Dövlət Sərhəd Xidmətinin məlumatına əsasən gələnlərin 29,4 faizi Rusiya Federasiyası, 29,1 faizi Gürcüstan, 11,2 faizi Türkiyə, 5,4 faizi İran, 4,5 faizi Birləşmiş Ərəb Əmirlikləri, 1,7 faizi Ukrayna, 1,3 faizi İraq, 17,3 faizi digər ölkələrin vətəndaşları, 0,1 faizi isə vətəndaşlığı olmayan şəxslər olmuşdur. Gələnlərin 71,1 faizini kişilər, 28,9 faizini isə qadınlar təşkil etmişdir.

Ölkəmizə yanvar ayında gələnlərin sayında daha çox artım Misir (4,5 dəfə), Pakistan (2,0 dəfə), Türkmənistan (1,7 dəfə), Hindistan (1,4 dəfə), Çin (26,5 faiz), Gürcüstan (21,9 faiz), Cənubi Koreya (15,2 faiz) vətəndaşları arasında qeydə alınmışdır.

Bununla yanaşı, Körfəz ölkələrindən gələnlərin sayı əvvəlki ilin eyni dövrü ilə müqayisədə 13,3 faiz azalaraq 28,5 min nəfər olmuşdur.

2019-cu ilin yanvar ayında Avropa İttifaqına üzv ölkələrdən gələnlərin sayı 0,9 faiz artaraq 5,8 min nəfər, MDB ölkələrindən gələnlərin sayı 0,2 faiz azalaraq 67,2 min nəfər olmuşdur.

2019-cu ilin yanvar ayında ölkəmizə gələn xarici vətəndaşların bank kartları vasitəsi ilə apardıqları əməliyyatların dəyəri isə **88,3 milyon manat** təşkil etmişdir. Bu barədə daha ətraflı məlumat təqdim olunan infoqrafikada verilmişdir.

# AZƏRBAYCANA GƏLƏN XARİCİ VƏTƏNDAŞLARIN **BANK KARTLARI VASİTƏSİ İLƏ** APARDIQLARI ƏMƏLİYYATLAR **(milyon manatla)**

| | 2017 | 2018 | 2019 |
|---|---|---|---|
| Yanvar | 86,6 | 99,8 | 88,3 |

# 3

# AZEXPORT.AZ PORTALINA 2019-CU İLİN YANVAR AYINDA 91,7 MİLYON ABŞ DOLLARI MƏBLƏĞİNDƏ İXRAC SİFARİŞİ DAXİL OLMUŞDUR

Ötən ilin **MÜVAFİQ DÖVRÜ** ilə müqayisədə Azexport.az portalına daxil olan **İXRAC SİFARİŞLƏRİ DƏYƏR** baxımından **12,5** faiz artmışdır.

2019-cu ilin yanvar ayında Azexport.az portalına **91,7 milyon** ABŞ dolları dəyərində ixrac sifarişləri daxil olmuşdur. 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə 2019-cu ilin yanvar ayında Azexport.az portalına daxil olan ixrac sifarişləri dəyər baxımından **12,5 faiz** artmışdır.

Cari ilin yanvar ayı ərzində portala daxil olan ixrac sifarişlərinin ilk beşliyində isə Türkiyə (19,8%), Rusiya (16,3%), ABŞ (10,5%), Hindistan (4,7%) və Ukrayna (4,7%) qərarlaşmışdır.

Daxil olan sifarişləri məhsullar üzrə təhlil etdikdə məlum olmuşdur ki, 2019-cu ilin yanvar ayında ən çox ixrac sifarişi soğan, fındıq ləpəsi, pomidor, alma, pambıq yağı, toyuq yumurtası, meyvə şirəsi, tütün, tikinti materialları, şərab, konservləşdirilmiş ət, qənnadı məhsulları, mühərrik yağı, mebel dəsti, nar şirəsi, kosmetik vasitə və s. mallara daxil olmuşdur. Xüsusən də yanvar ayında Türkiyə Respublikasından soğana sifariç artmışdır.

Məlumat üçün qeyd edək ki, 2017-ci ilin yanvar ayından 2019-cu ilin 31 yanvar tarixinə kimi (25 ay ərzində) Azexport.az portalına dünyanın 118 ölkəsindən daxil olan ixrac sifarişlərinin dəyəri **1 080,8 milyon** ABŞ dolları təşkil etmişdir.

Azexport.az portalına daxil olan ixrac sifarişləri barədə daha dolğun məlumat isə təqdim olunan infoqrafikalarda verilmişdir.

# **AZEXPORT.AZ** PORTALINA DAXİL OLAN İXRAC SİFARİŞLƏRİNİN DƏYƏRİ **(ABŞ dolları ilə)**






2017-ci il ərzində

**CƏMİ - 475 milyon**

2018-ci il üzrə

**CƏMİ - 514,1 milyon**

2019-cu il

**Yanvar - 91,7 milyon**



Son **25 ay** ərzindəki sifarişlərin cəmi - **1 080,8 milyon**

# 2019-CU İLİN **YANVAR AYINDA AZEXPORT.AZ** PORTALINDAN İXRAC SİFARİŞİ ALAN ƏSAS MALLAR

2019 İXRAC İCMALI FEVRAL

Soğan



Fındıq



Tomat



Alma



Pambıq yağı



Çiyid



Toyuq yumurtası



Meyvə şirəsi



Tütün



Tikinti materialları




Şərab



Konservləşdirilmiş ət



Qənnadı məhsulları



Mühərrik yağı



Mebel dəsti



## 2019-CU İLİN **YANVAR AYINDA AZEXPORT.AZ** PORTALINA DAXİL OLAN **ƏSAS İXRAC SİFARİŞLƏRİNİN ÖLKƏLƏR** ÜZRƏ BÖLGÜSÜ



# 4

# “ELEKTRON TİCARƏT” VƏ “İXRAC PROSEDURLARI” MÖVZUSUNDA TƏLİM KEÇİRİLMİŞDİR

Azərbaycan Respublikası İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin Azexport.az portalı Beynəlxalq Ticarət Mərkəzi (International Trade Centre - ITC) ilə birgə “Elektron Ticarət” və “İxrac prosedurları” üzrə təlimlərin ikinci mərhələsinə başlamışdır.

2019-ci ilin 19-20 fevral tarixlərində baş tutan təlim Beynəlxalq Ticarət Mərkəzinin ekspertləri Mohamed Es Fih və Eldar Adilzadə tərəfindən aparılmışdır. Təlim zamanı iştirakçılara malların alqı-satqısı, xidmətlərin göstərilməsi və işlərin görülməsi üzrə proseduralar barədə ətraflı məlumatlar təqdim olunmuşdur.

İki gün davam edən təlimdə 50-dən artıq şirkət nümayəndələri və sahə üzrə təhsil alan tələbələr iştirak etmişdir. Sonda iştirakçılara sertifikatlar təqdim olunmuşdur.

Qeyd edək ki, Azexport.az portalı sahibkarların elektron ticarət biliklərinin artırılması məqsədi ilə müntəzəm olaraq təlimlər təşkil edir.





# "AMAZONLA QAZAN" təlimi yekunlaşmışdır

Azərbaycan Respublikası İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin Azexport.az internet portalı və mərkəzi ofisi Cenevrə şəhərində yerləşən Beynəlxalq Ticarət Mərkəzi (ITC) Azərbaycan Dövlət İqtisad Universitetində "Amazonla Qazan" təlimi keçirmişdir.

Təlimdə tələbələrə Azexport.az portalının rəhbəri tərəfindən elektron ticarət platformalarından istifadə etməklə qeyri-neft ixracının artımının dəstəklənməsi istiqamətində görülən işlər barədə məlumat vermişdir. ITC-nin dəvət etdiyi ekspertlər Muhamed Es Fih və Eldar Adilzadə gənclərə Amazon və Alibaba kimi nəhəng elektron ticarət platformalarının imkanlarından istifadə etməklə öz müstəqil bizneslərinin qurulması istiqamətində ətraflı informasiyalar təqdim etmişdirlər.



Təlimin sonunda 70-dən artıq tələbəyə sertifikatlar təqdim olunmuşdur.

Onu da qeyd edək ki, cari ilin fevral ayında Azexport.az portalı tərəfindən Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının tələbələrinə də təlim keçirilmişdir.

Bu təlimdə iştirak edən 100-ə qədər tələbəyə Beynəlxalq Ticarət Mərkəzinin eksperti Muhamed Es Fih tərəfindən sertifikatlar təqdim olunmuşdur.







5

# "BİR PƏNCƏRƏ" İXRACA DƏSTƏK MƏRKƏZİNDƏN 5,6 MİLYON ABŞ DOLLARI DƏYƏRİNDƏ İXRAC HƏYATA KEÇİRİLMİŞDİR

2019-ci ilin fevral ayı ərzində "Bir Pəncərə" İxraca Dəstək Mərkəzi tərəfindən respublikamızda fəaliyyət göstərən fiziki və hüquqi şəxslərə ixracla bağlı müvafiq sertifikatların verilməsi prosesi davam etmişdir. Cari ilin fevral ayında "Bir Pəncərə" İxraca Dəstək Mərkəzi vasitəsi ilə həyata keçirilən qeyri-neft ixracının dəyəri isə **5,6 milyon** ABŞ dolları təşkil etmişdir.

Ölkəmizdə fəaliyyət göstərən fiziki və hüquqi şəxslərin müraciətinə əsasən onlara meyvə-tərəvəz, meyvə şirəsi, polad məmulatlar və s. məhsulların ixracı üçün lazım olan müvafiq sənədlər təqdim edilmişdir. Sertifikat verilən məhsullar Türkiyə, Rusiya, Gürcüstan, Ukrayna, Qazaxıstan daxil olmaqla dünyanın müxtəlif ölkələrinə ixrac edilmişdir.

Məlumat üçün bildirək ki, 2018-ci ildə "Bir Pəncərə" İxraca Dəstək Mərkəzi vasitəsi ilə həyata keçirilən ixracın dəyəri **150 milyon** ABŞ dolları olmuşdur.

Onu da qeyd edək ki, "Bir Pəncərə" İxraca Dəstək Mərkəzi sahibkarla ixracla bağlı sertifikatları verməklə yanaşı həm də onların maarifləndirilməsində mühüm rol oynayır. Belə ki, cari ilin fevral ayında "Bir Pəncərə" İxraca Dəstək Mərkəzi "PwC Azərbaycan" şirkəti ilə birgə "Vergi qanunvericiliyində son dəyişikliklər və bu dəyişikliklərin sahibkarlıq fəaliyyətinə təsiri" mövzusunda seminar keçirmişdir. Seminar çərçivəsində Vergi Məcəlləsinə edilən əsas dəyişikliklərin mahiyyəti və praktiki tətbiqi, sahibkarlıq subyektlərinin vergi və mühasibat uçotu siyasətinə qoyulan tələblər kimi mövzular haqqında danışılmışdır.



# 2019-CU İLİN YANVAR-FEVRAL AYLARINDA "BİR PƏNCƏRƏ" İXRACA DƏSTƏK MƏRKƏZİ VASİTƏSİLƏ HƏYATA KEÇİRİLƏN İXRACIN STATİSTİKASI (milyon ABŞ dolları ilə)









6

# AZƏRBAYCAN MƏHSULLARI "PRODEXPO 2019"-DA MEDALA LAYİQ GÖRÜLMÜŞDÜR

İqtisadiyyat Nazirliyinin dəstəyi, Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) təşkilatçılığı ilə Azərbaycan məhsulları cari ilin 11-15 fevral tarixlərində Rusiya Federasiyasının Moskva şəhərində təşkil edilmiş "Prodexpo 2019" beynəlxalq sərgidə nümayiş olunmuşdur.

Sərgidə qida, şərab və spirtli içkilər istehsalı sahəsində fəaliyyət göstərən 31 Azərbaycan şirkəti öz məhsullarını "Made in Azerbaijan" vahid ölkə stendində təqdim etmişdir.

Sərgi zamanı təşkil olunmuş "Prodexpo International Wine Competition and Guide" müsabiqəsində "Göygöl Şərab Zavodu"nun istehsalı olan şərablar - "Karabakh Chardonnay" qızıl, "Karabakh saperavi" gümüş, "Karabakh rose" bürünc medala, "İlin məhsulu 2019" beynəlxalq müsabiqəsində isə "Ləzzət qida sənaye" MMC-nin "Lay-Lay" qənnadı məhsulu qızıl medala layiq görülmüşdür.

Sərgidə Azərbaycan məhsullarının ixracına dair danışıqlar aparılmış, razılıqlar əldə olunmuşdur. Belə ki, "Aqro-Azərinvest" şirkəti nar şərabının, "Sunfood" şirkəti konservləşdirilmiş məhsulların ixracına dair, habelə "Naiqin Ko-Tovuz Baltiya" şirkəti Qazaxıstan və Çindən olan şirkətlərlə nar və heyva şərabının ixracına dair 2 müqavilənin imzalanması barədə razılıq əldə etmişdir.

"Baku Konserv" şirkəti isə Kalininqrad şəhərində yerləşən iri ticarət şəbəkəsi ilə meyvə şirələri və mürəbbələrin ixracına dair razılığa gəlmişdir.

Sərgi zamanı "Buta Aqro",  "Binə Aqro" və "Crispa" şirkətləri istehsal etdikləri məhsulların ixracına dair danışıqlar aparmışdırlar.






7

# AZƏRBAYCAN ŞİRKƏTLƏRİ "GULFOOD 2019" BEYNƏLXALQ QİDA SƏRGİSİNDƏ İŞTİRAK ETMİŞDİRLƏR

Cari ilin 17-21 fevral tarixlərində Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində keçirilən "Gulfood 2019" beynəlxalq qida sərgisində 21 Azərbaycan şirkəti öz məhsullarını "Made in Azerbaijan" vahid ölkə stendində nümayiş etdirmişdir.

Sərgi çərçivəsində Azərbaycanda istehsal olunan məhsulların ixracına dair razılıqlar əldə olunmuşdur. Belə ki, "Babək Sirab" şirkəti Səudiyyə Ərəbistanından, "Gədəbəy Mineral Suları" şirkəti isə Oman, BƏƏ və Hindistandan olan şirkətlərlə qazsız suların ixracına dair ilkin razılığa gəlmişdirlər. "Eco Dry" şirkətinin Oman və BƏƏ şirkətləri ilə meyvə qurularının ixracına dair apardığı danışıqlarda da müsbət nəticə əldə olunmuşdur. "Delta" şirkəti isə bir sıra Afrika ölkələrinə məhsulların satışına dair distribütor şirkətlə razılıq əldə etmişdir.

Bundan başqa, "Crispa snacks", "Aznar","Azersun", "APİAZ", "Balxurma", "Şirin", "Atena", "Tac" və "Ayan" şirkətləri Bəhreyn, İraq, Liviya, Argentina, Səudiyyə Ərəbistanı, Hindistan daxil olmaqla dünyanın müxtəlif ölkələrindən olan şirkətlərlə ixraca dair müzakirələr aparmışdır.

"CanPa" şirkəti BƏƏ-dən olan şirkətlə məhsulların satışına dair razılıq əldə etmiş və yaxın günlərdə bu ölkəyə qənnadı məhsullarının ixracına başlanılacaqdır.






**İQTİSADİ İSLAHATLARIN TƏHLİLİ VƏ KOMMUNİKASİYA MƏRKƏZİNİN**
**"BİR PƏNCƏRƏ" İXRACA DƏSTƏK MƏRKƏZİ**

AZ 1073, Bakı ş., Yasamal r., Landau küç., 16
16, Landau str., Yasamal district, Baku
Баку, Ясамальский район, ул. Ландау, 16

Tel.: (+994 12) 521 28 48
E-mail: info@ereforms.org

www.iqtisadiislahat.org
www.ereforms.org
www.ecoreform.az
/iqtisadiislahat
/BİR PƏNCƏRƏ İxraca Dəstək Mərkəzi




Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən "İxrac İcmalı" jurnalı 11 yanvar 2018-ci il tarixində N4160 nömrəsi ilə mətbu nəşrlərin reyestrinə daxil edilmişdir.

iqtisadiislahat.org
ereforms.org
ecoreform.az

/iqtisadiislahat

Bakı, Yasamal rayonu,
Landau küçəsi 16, AZ 1073
Tel.: (+ 994) 12 521 25 35
info@ereforms.org

